# HEYDƏR ƏLİYEV

## XX əsrin ən böyük azərbaycanlısı

**10 may tarixi Azərbaycan xalqı üçün böyük siyasi xadimin doğum günü, həm də müasir dövlətçiliyimizin təməlini qoymuş, onun müstəqilliyini qoruyub möhkəmləndirmiş ümummilli lider Heydər Əliyevin əziz xatirəsinin dərin ehtiramla anıldığı əlamətdar gündür. Bu günlərdə bütün ölkə üzrə keçirilən silsilə tədbirlərdə, ictimaiyyətin, dövlət və hökumət nümayəndələrinin iştirakı ilə xalqımız ümummilli liderin zəngin siyasi irsinə və əvəzsiz xidmətlərinə bir daha nəzər salır.**

Heydər Əliyev XX əsrin ən böyük azərbaycanlısı kimi tarixə düşmüşdür. Onun həyatı və fəaliyyəti bütöv bir epoxanı əhatə edir. Azərbaycan xalqının ən çətin və taleyüklü anlarında xalqına dayaq duran, onun milli mənafelərini qoruyan, müstəqilliyini və suverenliyini təmin edən lider kimi Heydər Əliyevin adı müasir Azərbaycan dövlətçiliyinin banisi kimi əbədi olaraq tarixə həkk olunmuşdur.

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildikdən sonra ölkənin inkişafında yeni bir mərhələ başlandı. O dövrdə iqtisadi gerilik, sosial problemlər və siyasi durğunluq içində olan respublika qısa müddət ərzində inkişaf yoluna qədəm qoydu. Onun təşəbbüsü ilə həyata keçirilən islahatlar nəticəsində sənaye, kənd təsərrüfatı və təhsil sahələrində mühüm nailiyyətlər əldə olundu. Milli kadrların hazırlanması, azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi siyasəti nəticəsində ölkədə intellektual potensial gücləndi.

Ümummilli liderin fəaliyyəti təkcə daxili inkişafla məhdudlaşmadı, o, Azərbaycan xalqının milli kimliyini qoruyaraq, mədəni irsimizin, dilimizin və tariximizin təbliğinə də böyük diqqət yetirdi. Hələ Sovet hakimiyyətinin sərt ideoloji çərçivələri daxilində belə, milli dəyərlər uğrunda mübarizə aparmaq onun liderlik keyfiyyətlərinin parlaq təzahürü idi.

SSRİ-nin dağılması və Azərbaycan Respublikasının müstəqillik qazanması ilə ölkə tarixinin ən çətin mərhələsinə qədəm qoydu. 1991-1993-cü illər ərzində dərin siyasi böhran, vətəndaş qarşıdurması, torpaqların işğalı və dövlət institutlarının iflic vəziyyəti xalqı ümidsizliyə sürükləmişdi. Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev doğma vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış tarixi imkandan faydalanaraq böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həmin vaxtdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı.

1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulmasına, ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində gərgin fəaliyyətə başladı.

1994-cü il mayın 12-də cəbhədə atəşkəs sazişi imzalandı. Beləliklə, müstəqilliyimizin ilk illərində çoxsaylı problemlərin həlli və ölkənin inkişaf mərhələsinə qədəm qoyması üçün zəruri şərait təmin edildi, ölkə iqtisadiyyatına sərmayə yatırmaqda maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə son qoyuldu.

Onun müdrik və uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik bərqərar edildi, dövlətçiliyin əsasları möhkəmləndirildi. 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın enerji resurslarının beynəlxalq bazara çıxarılmasına və iqtisadi müstəqilliyin təmin olunmasına yol açdı. Bununla da Heydər Əliyev Azərbaycanın geosiyasi mövqeyini gücləndirən strateji xəttin əsasını qoydu.

Ümummilli liderin ölkə rəhbərliyinə qayıdışı ilə bir çox sahələrdə genişmiqyaslı islahatların, o cümlədən qanunvericilik islahatlarının həyata keçirilməsinə başlanıldı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bununla da Azərbaycan demokratik inkişafın yeni mərhələsinə qədəm qoydu.

Heydər Əliyevin siyasi fəlsəfəsinin əsasını xalqın rifahı, dövlətin müstəqilliyi və suverenliyi təşkil edirdi. O, hər zaman qeyd edirdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır. Onun təşəbbüsü ilə qəbul edilmiş 1995-ci il Konstitusiyası ölkənin hüquqi bazasının təməlini qoydu və demokratik cəmiyyət quruculuğu üçün hüquqi zəmin yaratdı.

Ulu öndər Heydər Əliyevin daxili siyasətində insan amili əsas yer tuturdu. Təhsil, səhiyyə, sosial təminat sahələrinə yönəlmiş proqramlar, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, bölgələrin inkişafı onun diqqət mərkəzində idi. Xarici siyasətdə isə balanslaşdırılmış, milli maraqlara əsaslanan strateji xətt müəyyən olundu. Azərbaycan beynəlxalq aləmdə tanınan, hörmət edilən tərəfdaşa çevrildi.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm iqtisadi, həm siyasi, həm də hərbi sahədə mühüm nailiyyətlərə imza atmışdır. Qarabağın azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi Heydər Əliyevin arzusu idi. Ümummilli lider Heydər Əliyev zamanında bildirmişdi ki, Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Bəli, ulu öndərin ruhu şaddır ki, onun qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bundan başqa, Azərbaycanın beynəlxalq nüfuzu, regionda və dünyada artan rolu, enerji və nəqliyyat layihələrindəki lider mövqeyi məhz ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu uzaqgörən siyasətin nəticəsidir.

Bu gün ümummilli lider Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır. Onun adını daşıyan fondlar, ali təhsil ocaqları, muzeylər və xatirə kompleksləri ölkə daxilində və xaricdə fəaliyyət göstərir. Heydər Əliyev Fondu onun ideyalarını yaşadan, sosial və mədəni layihələrlə xalqın rifahına xidmət edən nüfuzlu qurum kimi fəaliyyət göstərməkdədir.

10 may - ümummilli liderin doğum günü hər il dövlət səviyyəsində qeyd olunur, abidəsi önünə əklillər qoyulur, müxtəlif elmi-praktik konfranslar və tədbirlər keçirilir. Bütün bu fəaliyyətlər bir daha sübut edir ki, ümummilli lider Heydər Əliyevin ideyaları yaşayır və yaşamaqda davam edəcək.

**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı.**